# Münxen görüşləri Azərbaycanın artan gücünü bir daha dünyaya göstərdi

**Almaniyanın Münxen şəhərində keçirilən 60-cı beynəlxalq konfrans dünya ictimaiyyətinin diqqət mərkəzində oldu. Konfransda bəşəriyyəti narahat edən Ukrayna və Yaxın Şərq, eləcə də Somali, Sudan və Haitidəki müharibələr, birgəyaşayış üçün əsas kimi beynəlxalq hüququn aliliyi, BMT Təhlükəsizlik Şurasının mümkün islahatı və iqlim dəyişikliyinə dair məsələlər müzakirə olunurdu. Münxen Təhlükəsizlik Konfransında 180 dövlətin yüksəkvəzifəli nümayəndəsi, o cümlədən 50-yə yaxın dövlət və hökumət başçısı iştirak edirdi.**




Konfransda Prezident İlham Əliyev də iştirak edirdi. Ərazi bütövlüyümüzü və suverenliyimizi təmin edəndən sonra Prezident İlham Əliyevin bu konfransda ilk iştirakı idi. Dövlətimizin başçısı həm də yenidən Prezident seçiləndən, Azərbaycan xalqının böyük dəstəyini qazanandan sonra bu toplantıya qatılmaqla ölkəmizin təhlükəsizlik, o cümlədən gündəlikdə olan məsələlərə yüksək dəyər verdiyini göstərirdi. COP29-a evsahibliyi edəcəyindən bu tədbir Azərbaycan üçün böyük əhəmiyyət kəsb edirdi.

Prezident İlham Əliyev konfrans çərçivəsində qarşı tərəflərin müraciəti əsasında bir sıra yüksəksəviyyəli görüşlər keçirdi. Dövlətimizin başçısı İsrail Dövlətinin Prezidenti İsxak Hersoqla görüşdü. İsrailin dövlət başçısı Azərbaycan Prezidentinə seçkilərdə qələbə qazanması münasibətilə təbriklərini çatdırdı. Söhbət zamanı Azərbaycan ilə İsrail arasında müxtəlif sahələrdə əməkdaşlığa dair fikir mübadiləsi aparıldı, hökumətlərarası komissiyanın fəaliyyəti qeyd olundu, iqtisadi-ticari, mədəni, humanitar əlaqələrə toxunuldu.

Prezident İlham Əliyevlə, həmçinin qarşı tərəfin müraciətinə əsasən, ATƏT-in fəaliyyətdə olan sədri, Malta Respublikasının xarici, Avropa işləri və ticarət naziri İan Borqun da görüşü oldu. Dövlət başçısı görüşdə ATƏT çərçivəsində keçmişin qalıqları olan bir sıra mexanizmlərin - bu xüsusda ATƏT-in Minsk qrupu, Yüksək Səviyyəli Planlaşdırma Komitəsi və ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi kimi tamamilə fəaliyyətsiz olan bu strukturların artıq rəsmi qaydada ləğv edilməsinin vacibliyini bildirdi. Prezident İlham Əliyev artıq Qarabağ münaqişəsinin həll olunduğunu, Azərbaycanın öz suverenliyini və ərazi bütövlüyünü təmin etdiyini vurğuladı. Dövlət başçısı Ermənistan ilə Azərbaycan arasında normallaşma prosesinin ikitərəfli xarakter daşıdığını da diqqətə çatdırdı. Görüşdə ikitərəfli ticarət əlaqələri və COP29-un Azərbaycanda keçirilməsi, iqlim dəyişikliyi nəticəsində əmələ gələn problemlərdən də ətraflı bəhs olundu.

COP29 və Azərbaycanın evsahibliyi etdiyi və edəcəyi digər qlobal tədbirlər ölkəmizin dünyada nüfuzunun yüksək dərəcədə artdığını göstərir. Prezident İlham Əliyevin andiçmə mərasimində qeyd etdiyi kimi, Azərbaycan artıq lokal səviyyədə fəaliyyət göstərən dövlət deyil, dünyanın müxtəlif bölgələrində fəal tərəfdaşlığı təşviq edən, etibarlı tərəfdaş kimi qəbul olunan, dünyada qlobal problemlərin həllində fəal iştirak edən və buna əməli töhfələr verən ölkə kimi qəbul olunur.

Münxendə dövlətimizin başçısının qarşı tərəfin müraciətinə əsasən ABŞ Prezidentinin qlobal infrastruktur və enerji təhlükəsizliyi üzrə xüsusi koordinatoru Amos Hoxşteyn ilə də görüşü olub. Görüş zamanı Prezident Azərbaycanın regionda strateji əhəmiyyətə malik ölkə olduğunu diqqətə çatdırıb. Amos Hoxşteyn COP29-a evsahibliyi edəcəyi münasibətilə Azərbaycanı təbrik edib, uğurlar arzulayıb.

Prezident İlham Əliyev ilə Almaniya Bundestaqının Xristian-Demokrat-Xristian-Sosialist İttifaqı fraksiyasının xarici, təhlükəsizlik və müdafiə siyasəti üzrə sədr müavini, Almaniya-Cənubi Qafqaz parlament qrupunun sədri Yohan David Vadefulun görüşü olub. Olduqca səmərəli keçən bu görüş də qarşı tərəfin müraciətinə əsasən baş tutub.

Prezident İlham Əliyev Türkiyə Respublikasının xarici işlər naziri Hakan Fidanla da görüşüb. Görüşdə Azərbaycan-Ermənistan münasibətləri, sülh sazişi ilə bağlı danışıqlar və regional təhlükəsizlik məsələləri müzakirə edilib.

Prezident İlham Əliyevin Münxen konfransında keçirdiyi görüşlərdə onun ölkəyə rəhbərliyi dövründə Azərbaycanın güclü, qüdrətli dövlətə çevrilməsi də etiraf olunub. Amerika Birləşmiş Ştatlarının Dövlət katibi Entoni Blinkenin Prezidentimizlə görüşü zamanı Azərbaycanla ikitərəfli əlaqələri çox yüksək qiymətləndirdiklərini diqqətə çatdırması ABŞ-nin ölkəmizlə əməkdaşlığı davam etdirməsində maraqlı olmasından və qarşılıqlı əməkdaşlığın bundan sonra da uğurla davam edəcəyindən xəbər verir.

Prezident İlham Əliyev Almaniya Kansleri Olaf Şolts, ABŞ Prezidentinin iqlim üzrə xüsusi nümayəndəsi Con Kerri, İraqın şimalındakı regional hökumətin başçısı Neçirvan Barzani və başqaları ilə də görüşlər keçirib.

Prezident İlham Əliyevin Münxen Təhlükəsizlik Konfransı çərçivəsində keçirdiyi görüşlər, verdiyi açıqlamalar olduqca böyük siyasi əhəmiyyətə malikdir. Prezidentin dəyərli açıqlamaları dövlətimizin və xalqımızın yekdil fikrinin qətiyyətli və dönməz ifadəsi idi. Münxen konfransı eyni zamanda Azərbaycanın xarici siyasətinin Cənubi Qafqaz regionunun hüdudlarını aşdığının bariz göstəricisidir. Qürur duyulası, fəxr ediləsi məqam ondan ibarətdir ki, Prezident İlham Əliyevin liderliyi Azərbaycanı dünyaya qüdrətli və güclü dövlət kimi təqdim edir.

Prezident İlham Əliyev Münxen görüşlərində Azərbaycanın daim artan iqtisadi və siyasi gücünü yenidən dünyaya göstərməklə, ölkəmizin bəyan etdiyi əməkdaşlıq və inkişaf prioritetlərinə sadiqliyini bir daha təsdiqlədi. Buna görə də ölkəmiz qlobal səviyyədə öz siyasətini həyata keçirməyi bacaran etibarlı tərəfdaş imicini qazanıb. Bütün bunlar Azərbaycanın gələcəkdə daha da böyük uğurlar qazanmasına, dünyada söz sahibi olmasına əlverişli zəmin yaradır.

***Vahid MƏHƏRRƏMOV,***
***"Azərbaycan"***



Azərbaycan.- 2024.- 23 fevral, № 41.- S.4.